# Xaricdəki "Azərbaycan evləri"

## Vətənin bir parçası



**ARTIQ MÜXTƏLİF ÖLKƏLƏRDƏ YAŞAYAN SOYDAŞLARIMIZ "AZƏRBAYCAN EVLƏRİ"NDƏ ONLARLA GÖRÜŞLƏR, BAYRAM TƏDBİRLƏRİ KEÇİRİB, SƏRGİLƏR TƏŞKİL EDİBLƏR**

Dünya böyük imtahanla üzləşdi - COVİD-19 olduqca çətin bir sınaqdır. İnkişaf etmiş ölkələrin səhiyyəsi, iqtisadiyyatı, sosial-psixoloji sfera, birlik, həmrəylik anlayışları, hər şey, hər sahə sanki imtahan verir. Bəşəriyyət yeni dövrə qədəm qoymaq ərəfəsindədir. Biz dünyanın bir parçası olaraq problemlərə məhz bu pəncərələrdən baxırıq. Amma eyni zamanda pandemiya dövrü bizim üçün, dünya azərbaycanlıları üçün həmrəyliyin sanki test dövrü də sayıla bilər. Xalqımız, sayı 50 milyonu ötən azərbaycanlılar birlik, həmrəylik imtahanına hazır idimi? Bu sahəyə, məsul olan Diasporla İş üzrə Dövlət Komitəsinin həyata keçirdiyi layihələr, atılan siyasi addımlar hər hansı təməl rolunu oynaya bilmişdimi?

Bəzi insanların müşahidələri maraqlıdır, söyləyirlər ki, xaricdə yaşayan azərbaycanlılar hər il əlamətdar tarixləri, bayram və hüzn günlərini qeyd etdikləri zaman elə olurdu ki, eyni otelin bir mərtəbəsində bir qrup, başqa mərtəbəsində başqa qrup toplanırdı və tədbirlərini, görüşlərini keçirirdilər. Bəzən bir-birlərindən xəbəri olurdu, bəzən də yox. Pərakəndəlik çox zaman keçirilən görüşlərin həm əhatə dairəsini daraldır, həm də təsir imkanlarını azaldırdı. Son iki ildə vəziyyət xeyli dəyişib.

Diasporla İş üzrə Dövlət Komitəsinin "Yol xəritəsi"nə uyğun şəkildə bu gün dünyanın 10 ölkəsində "Azərbaycan evləri" açılıb. Macarıstan, Polşa, ABŞ, Gürcüstan, Almaniya, İtaliya, Belçika, İspaniya, Ukrayna, Estoniya kimi ölkələrdə açılan "ev"lər Azərbaycan hökuməti hesabına fəaliyyət göstərir.

"Azərbaycan evləri" hələ ki azərbaycanlıların daha sıx yaşadığı şəhərlərdə açılıb və bu məkanlar xalqımızı sevən, milli maraqlarımızı üstün tutan hər kəsin, eləcə də bizə dost olan xaricilərin üzünə hər zaman açıqdır. Həmin evlərin hansına daxil olsan, orada tariximiz, mədəniyyətimiz, Qarabağ münaqişəsinin əsl mahiyyəti, milli adət-ənənəmiz, tarixi şəxsiyyətlərimizlə bağlı kitab və jurnallara, ensiklopedik məlumatlara, əşya və aksessuarlara rast gələcəksən, ürəyin üçrəngli bayrağımızın dalğalanması ilə dağa dönəcək.

Artıq müxtəlif ölkələrdə yaşayan soydaşlarımız "Azərbaycan evləri"ndə onlarla görüşlər, bayram tədbirləri keçirib, sərgilər təşkil ediblər.

Dünyanı gözlənilməz bəla bürüyəndə - koronavirus pandemiyası başlayanda "Azərbaycan evləri"nin nə qədər böyük əhəmiyyət daşıdığı, belə bir ideyanın nə gözəl ki, reallaşdığı daha aydın göründü. Pandemiya dövründə Azərbaycana qayıda bilməyən onlarla soydaşımız məhz bu evlərə sığındı. Macarıstan, Polşa, Almaniya kimi ölkələrdəki Azərbaycan evləri onların əsl yuvasına çevrildi. Polşadakı Azərbaycan evində 20 gün ərzində 19 tələbəmiz yerləşdirildi. Başqa bir Azərbaycan evi - Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzi Bolnisi və Marneuli rayonlarında onlarla soydaşımıza ən çətin anda köməyini əsirgəmədi.







**"AZƏRBAYCAN EVLƏRİ"NİN YARADILMASI XARİCDƏ YAŞAYAN SOYDAŞLARIMIZIN KOORDİNASİYALI FƏALİYYƏTİNİ TƏNZİMLƏMƏK, ONLARIN TƏŞKİLATLANMASINA YARDIM ÜÇÜN ƏN MÜHÜM ADDIMLARDAN SAYILIR**




Pandemiya dövründə "Azərbaycan evləri"nin rəhbərləri və diasporu təmsil edən müxtəlif şəxslər Komitənin nəzdində fəaliyyət göstərən Diaspor TV vasitəsilə videokonfranslara qoşularaq dünya azərbaycanlılarının məlumatlandırılmasında yaxından iştirak etdilər.

"Azərbaycan evləri"nin yaradılması xaricdə yaşayan soydaşlarımızın koordinasiyalı fəaliyyətini tənzimləmək, onların təşkilatlanmasına yardım üçün ən mühüm addımlardan sayılır. 27 ölkəni əhatə edən 11 Koordinasiya Şurasının yaranması və tədbirlərin çoxunun məhz koordinasiyalı şəkildə Azərbaycan evlərində təşkili birlik amilini xeyli gücləndirib.

Əvvəl düşünürdük ki, bu model - "Azərbaycan evləri" modeli özünü 2, 3, 5 ildən sonra doğrulda bilər. Bu hadisə göstərdi ki, həmin model özünü daha tez - indi doğrultdu.

Xaricdəki "Azərbaycan evləri" ölkəmizi tanıtdırmaq üçün zəngin bazaya malikdir və bu evlərdə soydaşlarımızın filmlərə baxmaq, dərnəklər təşkil etmək, dil kursları açmaq, mütaliə etmək imkanları var.

Bu məkanlar vətənin sərhədlərindən kənarda yaşayan hər bir soydaşımız üçün enerji qaynağı, vətənə sevgi timsalıdır. "Azərbaycan evləri" xaricdə yaşayan insanlar, xaricdə doğulan azərbaycanlılar üçün məlumat bazası olmaqla yanaşı, başqa millətlər üçün mühüm informasiya daşıyıcısı və ötürücüsü rolunu da oynayır.

Azərbaycan evləri Azərbaycanın dünyadakı bir parçasıdır.

**Vəsilə Vahidqızı**
Diasporla İş üzrə DK-nin mətbuat katibi